# Ekologiya və Təbii Sərvətlər Nazirliyində Latviya Seyminin Sədri ilə görüşdə COP29-a hazırlıq tədbirlərindən danışılıb

**Azərbaycanda işgüzar səfərdə olan Latviya Seyminin Sədri Dayqa Mierina ilə ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev arasında görüş keçirilib. Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.**

Görüşdə iki ölkə arasında ətraf mühitin mühafizəsi, gələcək əməkdaşlıq imkanları müzakirə edilib. Eyni zamanda ölkəmizin bu il evsahibliyi edəcəyi mötəbər tədbir olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq tədbirləri ətrafında fikir mübadiləsi aparılıb.

---

Azərbaycan.- 2024.- 22 may, № 106.- S.8.